Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin 31.07.2026-cı il tarxili 3-24/3-1-f-164/2026 nömrəli əmri ilə **təsdiq edilmişdir** (1 nömrəli əlavə).

**Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyinin tabeliyindəki incəsənət (musiqi, incəsənət, rəssamlıq, muğam, aşıq və s.) məktəb və mərkəzlərinə müəllimlərin işə qəbulu və iş yerinin dəyişdirilməsi**

# QAYDALARI

## 1. Ümumi müddəalar

1.1. "Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyinin tabeliyindəki incəsənət (musiqi, incəsənət, rəssamlıq, muğam, aşıq və s.) məktəb və mərkəzlərinə müəllimlərin işə qəbulu və iş yerinin dəyişdirilməsi Qaydaları" (bundan sonra - Qaydalar) Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 6 iyun tarixli 119 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi haqqında Əsasnamə"nin 3.1.45-ci yarımbəndinə uyğun olaraq, Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi (bundan sonra – Nazirlik) sisteminə daxil olan incəsənət (musiqi, incəsənət, rəssamlıq, muğam, aşıq və s.) məktəb və mərkəzlərinə (bundan sonra – məktəblər) işə qəbul və iş yerinin dəyişdirilməsi prosesində obyektivliyin, şəffaflığın və hüquq bərabərliyinin təmin edilməsi, səriştəli kadrların müəyyən edilərək işə qəbul edilməsi məqsədilə Azərbaycan Respublikasının Əmək Məcəlləsinə və digər qanunvericilik aktlarına uyğun olaraq hazırlanmışdır.

1.2. Bu Qaydalar məktəblərdə vakant elan edilmiş vəzifələrə müəllimlərin mərkəzləşdirilmiş qaydada işə qəbulu və iş yerinin dəyişdirilməsi qaydasını müəyyənləşdirir.

## 2. İşə qəbulun və iş yerinin dəyişdirilməsinin prinsipləri

Nazirlik tərəfindən məktəblərə müəllimlərin işə qəbulu və iş yerinin dəyişdirilməsi aşağıdakı prinsiplər əsasında həyata keçirilir:

- **qanunçuluq** – işə qəbul və iş yerinin dəyişdirilməsi zamanı qanunvericiliyin tələblərinə riayət edilməsi, namizədlərlə bağlı məcburi tələblərin normativ hüquqi aktlarla və Nazirlik tərəfindən təsdiq olunmuş hüquqi aktlarla müəyyən edilməsi;
- **obyektivlik** – namizədin vakant vəzifəyə uyğunluğunun bu Qaydalar və digər hüquqi aktlar əsasında qiymətləndirilməsi;
- **qərəzsizlik** – namizədlə yaxın qohumluq (əri (arvadı), valideynləri, qardaşları, bacıları, övladları) və şəxsi tanışlıq əlaqəsi olan şəxslərin müsahibə komissiyasının tərkibinə daxil edilməsinin yolverilməzliyi;
- **bərabərlik** - irqindən, etnik mənsubiyyətindən, dinindən, dilindən, cinsindən, mənşəyindən, əmlak vəziyyətindən, qulluq mövqeyindən, əqidəsindən, siyasi partiyalara, həmkarlar ittifaqlarına və digər ictimai birliklərə mənsubiyyətindən asılı olmayaraq bütün namizədlərin müsabiqənin keçirilməsi ilə əlaqədar hüquqlarının bərabərliyinə təminat verilməsi;
- **peşəkarlıq** – namizədin potensialının və vakant vəzifəyə (peşəyə) uyğunluğunun müəyyən edilməsi üçün hərtərəfli qiymətləndirilməsi;

• **şəffaflıq** – müsabiqə şərtlərinin və nəticələrinin ictimaiyyətə açıq şəkildə elan edilməsi.

## 3. Müəllimlərin işə qəbulunun ümumi qaydaları

3.1. Məktəblərə müəllimlərin işə qəbulu Nazirlik tərəfindən test imtahanı və müsahibə mərhələlərindən ibarət olan müsabiqə yolu ilə təşkil edilir.
3.2. Müsabiqə proqramı və istifadə edilən ədəbiyyat siyahısı Nazirlik tərəfindən müəyyən edilir. Müəllimlərin işə qəbulu üzrə test və müsahibə proqramları xoreoqrafiya, rəssamlıq, klassik və milli musiqi üzrə differensiallaşdırılmış qaydada hazırlanır.
3.3. Müsabiqənin keçirilməsi barədə məlumat, qaydalar, test və müsahibə mərhələlərinin proqramları Nazirliyin və aidiyyəti tabeli qurumların informasiya resurslarında yerləşdirilir.
3.4. Müəllimlərin işə qəbulu üzrə müsabiqədə orta ixtisas və ali təhsil müəssisələrini müvafiq ixtisaslar üzrə (orta ixtisas təhsili, ali təhsilin bakalavriat və magistratura səviyyələri üzrə ixtisasların təsnifatının “Mədəniyyət və incəsənət ixtisasları qrupu” üzrə) bitirərək təhsil haqqında dövlət sənədi (diplom) almış (xarici dövlətin təhsil müəssisəsini bitirmiş şəxslərə münasibətdə Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi tərəfindən verilən xarici dövlətlərin ali təhsilə aid kvalifikasiyalarının tanınmasına dair təsdiq edilmiş şəhadətnaməni təqdim etmiş) şəxslər iştirak edə bilərlər.
3.5. Əlilliyi olan namizədlərin test imtahanında iştirak edərkən bilik və bacarıqlarını nümayiş etdirmələri üçün ağlabatan uyğunlaşdırma təmin edilir. Bu məqsədlə sualların texniki vasitələrlə çatdırılması, zəruri köməkçi vasitələrdən istifadə və ya ayrıca nümayəndənin təhkim edilməsi təmin oluna bilər.
3.6. Müvafiq tədris ili üzrə kadr ehtiyacını müəyyən etmək məqsədilə məktəblərdə işləyən müəllimlər arasında dərs bölgüsü qanunvericiliyə uyğun aparılmaqla vakant yerlər haqqında məlumat məktəblərin rəhbərliyi tərəfindən tabelik üzrə Bakı Şəhər Mədəniyyət Baş İdarəsi və regional mədəniyyət idarələrinə (bundan sonra – idarələr), idarələr tərəfindən isə Nazirliyə təqdim edilir. Bu məlumatların düzgünlüyü Nazirliyin Aparatının müvafiq struktur bölmələri tərəfindən yoxlanılır.
3.7. Müəllimlərin yeni tədris ili üçün dərs yükü məktəb rəhbəri tərəfindən müəyyənləşdirilir. Vakant dərs yükü 1 stavkadan (12 saatdan) az olarsa, həmin saatlar, ilk növbədə müəssisənin ixtisaslı müəllimləri arasında bölüşdürülür. Məktəbdə hər hansı ixtisas üzrə kadr olmadıqda, həmin dərs saatları vakant hesab olunur və müsabiqəyə çıxarılması üçün təqdim edilir. Sosial məzuniyyətdə olan müəllimin dərs yükü vakant hesab olunmur, həmin müəllimə hər tədris ilinin əvvəlində tarifləşmə cədvəlində müvafiq dərs yükü ayrılır və əmrləşdirilir.
3.8. Aşağıdakı şəxslərin müsabiqədə iştirakına yol verilmir:
3.8.1. məhkəmənin qanuni qüvvəyə minmiş qərarı ilə pedaqoji fəaliyyətlə məşğul olması qadağan edilən;
3.8.2. ağır və ya xüsusilə ağır cinayət törətməsinə görə məhkumluğu ödənilməmiş və ya götürülməmiş;
3.8.3. fəaliyyət qabiliyyəti olmayan və ya məhdud fəaliyyət qabiliyyətli hesab edilməsinə, habelə barəsində tibbi xarakterli məcburi tədbirlərin tətbiqinə dair məhkəmənin qanuni qüvvəyə minmiş qərarı olan;
3.8.4. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 18 fevral tarixli 57 nömrəli Qərarı ilə təsdiq edilmiş siyahıya əsasən sağlamlıq vəziyyəti ilə əlaqədar pedaqoji fəaliyyət göstərməsinə yol verilməyən;
3.8.5. uşaqlara qarşı cinsi istismar və ya cinsi zorakılıqla bağlı cinayətə görə məhkum olunmuş.

.

3.9. İnzibati və ya cinayət məsuliyyətinə cəlb edilməsi ilə əlaqədar işdən azad edilmiş şəxslərin işə qəbulu məsələsinə mövcud qanunvericilik və bu Qaydalar əsasında baxılır.

## 4. Müəllimlərin işə qəbulu üzrə müsabiqənin test imtahanının keçirilməsi qaydası

4.1. Müəllimlərin işə qəbulu üzrə müsabiqənin test imtahanının vaxtı və keçiriləcəyi yer barədə məlumatlar imtahanın keçirilməsinə azı 30 (otuz) gün qalmış Nazirliyin və aidiyyəti tabeli qurumların rəsmi informasiya resurslarında elan olunur.

4.2. Test imtahanı zamanı namizədlərə 70 test tapşırığı təqdim olunur və bu tapşırıqların yerinə yetirilməsi üçün 2 saat vaxt ayrılır. Hər bir düzgün cavab 1 balla qiymətləndirilir.

4.3. Test imtahanı müvafiq vakant vəzifənin fəaliyyət istiqaməti üzrə ixtisas biliklərini qiymətləndirmək üçün 40, pedaqoji bacarıqlarını və tədris prosesində şagirdlərlə davranışını müəyyən etmək üçün 10, ümumi dünyagörüşünü əhatə edən 10 və namizədin məntiqi düşünmə bacarığını müəyyən etmək üçün 10 test tapşırığından ibarətdir.

4.4. Test imtahanında toplanması mümkün olan maksimum nəticə 100 faizlə (70 bal) ifadə edilir. İmtahanda təqdim edilmiş test tapşırıqlarından 50 faizini düzgün cavablandıraraq 35 bal toplamış namizədlər (Bakı, Sumqayıt, Gəncə şəhərləri və Abşeron rayonu üzrə məktəblərdə işə qəbul olunmaq istəyən namizədlər və bu Qaydalara 1 nömrəli Əlavədə nəzərdə tutulmuş ixtisaslara müraciət etmiş namizədlər istisna olmaqla) uğur qazanmış hesab edilir.

4.5. Bakı şəhərinin məktəbləri üzrə işə qəbul üçün imtahanda təqdim edilmiş test tapşırıqlarından 70 faizini düzgün cavablandıraraq 49 bal toplamış namizədlər, Abşeron rayonu, Sumqayıt və Gəncə şəhərləri üzrə məktəblərə işə qəbul üçün imtahanda təqdim edilmiş test tapşırıqlarından 60 faizini düzgün cavablandıraraq 42 bal toplamış namizədlər (bu Qaydalara 1 nömrəli Əlavədə nəzərdə tutulmuş ixtisaslara müraciət etmiş namizədlər istisna olmaqla) uğur qazanmış hesab edilir.

4.6. Bir sıra ixtisaslar üzrə keçid balları bu Qaydalara 1 nömrəli Əlavəyə əsasən müəyyən edilir.

4.7. Test mərhələsində tələb olunan keçid balını toplayaraq uğur qazanan namizədlər müsahibə mərhələsinə buraxılır.

## 5. Müsahibə komissiyasının reqlamenti və müsahibənin keçirilməsi qaydası

5.1. Müsabiqənin müsahibə mərhələsi test imtahanının nəticəsi elan olunduqdan sonra keçirilir.Müsahibənin keçirildiyi vaxt və yer barədə namizədlərə müsahibənin keçirilməsinə azı 5 (beş) gün qalmış birbaşa və ya Nazirliyin rəsmi informasiya resursları vasitəsilə məlumat verilir.

5.2. Müsahibələr namizədlərin razılığı ilə videoçəkiliş aparılmaqla keçirilir.

5.3. Müsabiqənin müsahibə mərhələsində namizədin vəzifəyə uyğunluğunu Nazirlik tərəfindən yaradılan Müsahibə Komissiyası (bundan sonra – Komissiya) müəyyən edir. Komissiya müvafiq sahə üzrə mütəxəssislər daxil olmaqla 3 nəfərdən ibarət tərkibdə təşkil edilir. Komissiyaya daxil ediləcək şəxslərin geniş siyahısı nazir tərəfindən təsdiq edilir.

5.4. Komissiya üzvləri namizədlərlə müsahibələrin keçirilməsini, qiymətləndirilməsini, müsahibə nəticəsində rəylərin hazırlanmasını və aidiyyəti üzrə təqdim edilməsini təmin edirlər.

5.5. Müsahibə komissiyasının üzvləri müsahibə aparılacaq yerə təyin edilmiş vaxtda gəlməli, namizədin və digər komissiya üzvlərinin şəxsiyyətinə və fikirlərinə hörmətlə

yanaşmalı, müsahibə zamanı nəzakətli, diqqətli və səbrli olmalı, namizədin vakant vəzifəyə uyğunluğunu qiymətləndirmək üçün vəzifənin tələbləri ilə əlaqədar və bu Qaydaların 5.7-ci bəndində qeyd edilən meyarlara uyğun aidiyyəti üzrə suallar verməli, müsahibənin aparılmasına mane olan texniki və digər vasitələrdən istifadə etməməli, o cümlədən rabitə vasitələrini müsahibə otaqlarına gətirməməli və müsahibənin aparılmasına mane olan digər hərəkətlərə yol verməməlidir.

5.6. Hər bir namizədlə müsahibə fərdi qaydada, Azərbaycan Respublikasının dövlət dilində və azı 20 (iyirmi) dəqiqə aparılır.Namizədə verilən suallar və tapşırıqlar aydın olmadıqda, namizədin həmin sualları və tapşırıqları aydınlaşdırmaq hüququ vardır.

5.7. Müəllimlərin işə qəbulu üzrə müsabiqənin müsahibə mərhələsində iştirak edən namizədin bilik və bacarıqları aşağıdakı meyarlar üzrə qiymətləndirilir:

5.7.1. Klassik və milli musiqi alətləri (fortepiano, simli, nəfəs və zərb, xalq çalğı alətləri) ifaçılığı, vokal və xanəndəlik ixtisasları üzrə:

5.7.1.1. müsahibə proqramına uyğun olaraq əsərlərin ifası;

5.7.1.2. komissiya tərəfindən verilən əsərin üzdən oxunması və təhlili;

5.7.1.3. müvafiq alətin (sənətin) ifaçılıq məktəbi ənənələri, musiqi nəzəriyyəsi və tarixi üzrə bilikləri, müvafiq ixtisas üzrə dərsliklər və ədəbiyyat;

5.7.1.4. digər zəruri olan keyfiyyətləri - namizədin emosional sabitliyi, pedaqoji keyfiyyətləri, yaradıcı xüsusiyyətləri, özünüifadə və ünsiyyət bacarıqları.

5.7.2. Musiqişünaslıq (musiqi nəzəriyyəsi və tarixi) ixtisası üzrə:

5.7.2.1. müsahibə proqramına uyğun olaraq Azərbaycan musiqi ədəbiyyatı fənni üzrə bilikləri (bəstəkarların həyat və yaradıcılığı, musiqi əsərinin üzdən oxunması - fortepianoda ifası və təhlili, əsərlərin eşitmə ilə təyin edilməsi, müvafiq fənn üzrə dərsliklər və ədəbiyyat);

5.7.2.2. müsahibə proqramına uyğun olaraq xarici ölkələrin musiqi ədəbiyyatı fənni üzrə bilikləri (bəstəkarların həyat və yaradıcılığı, musiqi əsərinin üzdən oxunması - fortepianoda ifası və təhlili, əsərlərin eşitmə ilə təyin edilməsi, müvafiq fənn üzrə dərsliklər və ədəbiyyat);

5.7.2.3. musiqi nəzəriyyəsi və harmoniya üzrə bilikləri, solfecio nömrələrinin üzdən oxunması, eşitmə ilə təyin, müvafiq fənlər üzrə dərsliklər və ədəbiyyat;

5.7.2.4. digər zəruri olan keyfiyyətləri - namizədin emosional sabitliyi, pedaqoji keyfiyyətləri, yaradıcı xüsusiyyətləri, özünüifadə və ünsiyyət bacarıqları.

5.7.3. Xor dirijorluğu ixtisası üzrə:

5.7.3.1. müsahibə proqramına uyğun olaraq əsərin ifası və dirijorluğu, partiyaların oxunuşu, əsərlərin təhlili;

5.7.3.2. verilən əsərin üzdən oxunması və təhlili, verilən əsər üzərində praktiki iş;

5.7.3.3. xor ixtisasının tədrisi metodikası, intonasiya və eşitmə, nəzəri biliklər, vokal vərdişləri və xorşünaslıq;

5.7.3.4. digər zəruri olan keyfiyyətləri - namizədin emosional sabitliyi, pedaqoji keyfiyyətləri, yaradıcı xüsusiyyətləri, özünüifadə və ünsiyyət bacarıqları.

5.7.4. Təsviri sənət (rəssamlıq və heykəltəraşlıq) üzrə:

5.7.4.1. müsahibə proqramına uyğun olaraq əsərin işlənməsi;

5.7.4.2. rəsmin düzgün yerləşdirilməsi, ölçü nisbətinin, işin ümumi rəng koloritinin düzgün seçilməsi, eskizin hazırlanması və karkasın qurulması (heykəltəraşlar üçün);

5.7.4.3. rəng tonları vasitəsi ilə işıq-kölgə nisbətlərinin yerinə yetirilməsi və faktura verilməsi, əsas və yardımçı xətlər, üfüq xətti, sahə hissələrinin ayrılması, perspektiv qanunlarının tətbiq edilməsi;

5.7.4.4. digər zəruri olan keyfiyyətləri - namizədin emosional sabitliyi, pedaqoji keyfiyyətləri, yaradıcı xüsusiyyətləri, özünüifadə və ünsiyyət bacarıqları.

5.7.5. Xoreoqrafiya ixtisası üzrə:

5.7.5.1. müsahibə proqramına uyğun olaraq rəqsləri təhlil etmə və hərəkətləri göstərmə bacarığı;

5.7.5.2. xoreoqrafiya sənətinin yaranma və inkişaf tarixi, korifey simaları haqqında bilikləri; xoreoqrafiya sənəti üzrə ixtisas bölgüsünün düzgün aparılması, ixtisas üzrə metodiki bilikləri;

5.7.5.3. Azərbaycan rəqsləri və onların tarixi üzrə bilikləri, Azərbaycan bəstəkarlarının balet və rəqs üçün yazdıqları əsərləri düzgün seçə bilmək bacarığı;

5.7.5.4. digər zəruri olan keyfiyyətləri - namizədin emosional sabitliyi, pedaqoji keyfiyyətləri, yaradıcı xüsusiyyətləri, özünüifadə və ünsiyyət bacarıqları.

5.8. Müsahibənin nəticəsi ilə razı olmayan namizədlər nəticələr elan olunduqdan sonra 3 (üç) iş günü müddətində apellyasiya qaydasında şikayət verə bilərlər.

5.9. İşəgötürən müsabiqədə uğur qazanan və təyinat alan namizədi 3 (üç) ay sınaq müddəti müəyyən edilməklə əmək müqaviləsi əsasında müvafiq vəzifəyə təyin edir. Sınaq müddəti ərzində əmək münasibətləri Azərbaycan Respublikasının Əmək Məcəlləsinə uyğun tənzimlənir. Sınaq müddəti başa çatdıqda işçinin fəaliyyəti qənaətbəxş hesab olunarsa əmək münasibətləri davam etdirilir.

5.10. İşə qəbul üzrə keçirilən müsabiqədə uğur qazanan, lakin vəzifəyə təyin edilməyən namizədlər 1 (bir) il müddətinə ehtiyat kadrlar siyahısında saxlanılırlar. Nazirlik müvafiq ixtisas üzrə vakant vəzifələr yarandıqda həmin vakansiyalar barədə əvvəlcədən elan verir. Ehtiyat kadrlar siyahısında olan namizədlərin müraciətləri “MyCulture” platforması üzərindən qəbul edilir və yerləşdirmə bu Qaydaların 6.8-ci bəndində müəyyən edilmiş üstünlük ardıcıllığı gözlənilməklə müsabiqə nəticələrinə uyğun aparılır. Müddət başa çatdıqda namizəd ehtiyat kadrlar siyahısından çıxarılır.

5.11. Müsabiqənin nəticələri üzrə təyinat alan namizəd iş yerindən imtina etdiyi halda ehtiyat kadrlar siyahısına daxil edilmir.

5.12. Müsabiqənin nəticələri üzrə uğur qazanmış namizədlər yalnız əsas işçi kimi işə qəbul edilirlər.

5.13. Müsabiqədən keçən namizədlər zəruri hallarda təlim kurslarına cəlb oluna bilərlər.

## 6. Qiymətləndirilmə və balların hesablanması

6.1. Müsahibədə namizədin bacarıqları balla qiymətləndirilir. Bu Qaydalarda qeyd edilən hər bir qiymətləndirmə meyarı üzrə ən yüksək bal 10, ən aşağı bal 0-dır.

6.2. Hər bir qiymətləndirilmə meyarı üzrə ballar aşağıdakı kimi müəyyən edilir:

- 0 - 4 bal - qeyri-kafi;
- 5 - 6 bal - kafi;
- 7 - 8 bal - yaxşı;
- 9 -10 bal - əla.

6.3. Hər bir meyar üzrə verilmiş qiymətlər toplanaraq, namizədin ümumi balı müəyyən edilir və yekun nəticə rəsmiləşdirilir.

6.4. Yekun nəticə aşağıdakı düstur əsasında hesablanılır:

$$\frac{\text{Ümumi balların cəmi}}{\text{Komissiya üzvlərinin sayı}} = \text{Nəticə}$$

Məsələn: dörd meyar üzrə hər bir komissiya üzvü tərəfindən verilən ümumi ballar: 35 bal; 31 bal; 32 bal. Nəticənin hesablanması: (35 + 31 + 32) : 3 = 32,7.

6.5. Müsahibədə 32 və daha çox bal toplamış namizəd uğur qazanmış hesab edilir.

6.6. Qiymətləndirmə zamanı komissiya üzvlərinin hüquqları bərabərdir və hər kəs öz qərarının düzgünlüyünə görə məsuliyyət daşıyır.

6.7. Müsahibə komissiyasının üzvlərinin namizəd barəsində verdiyi ballar arasında 6 bal və daha çox fərq olduqda və ya müsahibənin keçirilməsi zamanı obyektivlik və şəffaflıq

prinsiplərinin pozulduğu aşkar edildikdə, müsahibənin nəticəsi ləğv edilir və komissiyanın tərkibi yenidən təşkil edilməklə namizədlə təkrar müsahibə keçirilir.

6.8. Müsahibədən müvəffəqiyyətlə keçən namizədin ümumilikdə müsabiqə üzrə yekun nəticəsi test və müsahibə mərhələlərinin faizlə nəticələri cəmlənib 2-yə bölünməklə faizlə müəyyən edilir.

6.9. Yekun nəticələr rəsmi elan edildikdən sonra namizəd maksimum 15 vakansiya seçə bilər.

6.10. İşə qəbulla bağlı qərar verilərkən müsabiqə üzrə yekun nəticəsi ən yüksək olan namizədə üstünlük verilir. Müsabiqə üzrə yekun nəticəsi eyni olan namizədlər arasında seçim edilərkən test imtahanında daha çox bal toplamış namizədə üstünlük verilir. Test imtahanı nəticəsi də eyni olan namizədlər arasından seçim edilərkən aşağıdakı şəxslərə qeyd olunan ardıcıllıqla üstünlük verilir:

6.10.1. şəhid ailəsi üzvlərinə və Vətən müharibəsi iştirakçılarına;

6.10.2. müvafiq sahə üzrə elmi dərəcəyə və ya elmi ada malik olan namizədə;

6.10.3. ali və orta ixtisas təhsilli namizədlər arasında seçim zamanı test imtahanında eyni bal toplanıldıqda ali təhsilli namizədə;

6.10.4. keçid balını toplamış namizədlərin hamısı ali təhsilli və ya orta ixtisas təhsilli olduqda ixtisas bilikləri üzrə daha çox bal toplayan namizədə;

6.10.5. test imtahanında ixtisas bilikləri üzrə toplanılan bal eyni olduqda pedaqoji iş stajı daha çox olan namizədə.

## 7. Müəllimlərin iş yerinin dəyişdirilməsi

7.1. Nazirliyin tabeliyindəki məktəblərdə müddətsiz əmək müqaviləsi ilə işləyən müəllimlərin iş yerinin dəyişdirilməsi məsələsinə Nazirlik tərəfindən yaradılan Komissiya tərəfindən fərdi qaydada baxılır.

7.2. İş yerinin dəyişdirilməsi ilə bağlı müraciətlərə müvafiq vakant vəzifə olduqda və Nazirlik tərəfindən bu istiqamətdə əvvəlcədən elan verildikdə baxılır. Müraciətlər “MyCulture” platforması üzərindən qəbul edilir.

7.3. Nazirlik mövcud vakansiyalar olduğu təqdirdə iş yerinin dəyişdirilməsi ilə bağlı müraciətləri qəbul edir.

7.4. Cari iş yerində 2 (iki) ildən az müddət çalışan müəllimin iş yerinin dəyişdirilməsi aparılmır.

## 8. Qaydaların pozulmasına görə məsuliyyət

8.1. Müəllimlərin işə qəbulu və iş yerinin dəyişdirilməsi zamanı bu Qaydaların tələblərinə riayət edilmədikdə qanunvericiliyə uyğun tədbirlər görülür.

8.2. Nazirlik tərəfindən yaradılmış Komissiyanın fəaliyyətində pozuntu aşkar edildikdə pozuntunun xarakterinə uyğun olaraq bu Qaydaların 8.2.1-ci və ya 8.2.2-ci yarımbəndində nəzərdə tutulan qərarlardan biri qəbul edilir:

8.2.1. pozuntu Komissiyanın fəaliyyətini bütövlükdə əhatə etdikdə Komissiyanın qərarları və həmin Komissiyanın apardığı qiymətləndirmələrin nəticələri ləğv edilir;

8.2.2. pozuntu yalnız müəyyən namizədlə bağlı olduqda həmin namizəd üzrə nəticə ləğv edilir və fərqli tərkibli Komissiya ilə müsahibə yenidən keçirilir.

8.3. Namizəd ərizəsində göstərdiyi məlumatların və təqdim etdiyi sənədlərin doğruluğuna görə məsuliyyət daşıyır. Müsabiqənin istənilən mərhələsində məlumatların düzgün olmadığı, qəsdən təhrif edildiyi, saxta sənəd təqdim olunduğu və ya namizədin tələblərə cavab vermədiyi aşkar edilərsə onun nəticəsi ləğv edilir. Şəxs işə qəbul

edildikdən sonra belə hal aşkar edilərsə məsələyə əmək qanunvericiliyinə uyğun baxılır.

8.4. Müsabiqə tapşırıqlarının və onların həllinə dair materialların foto və video çəkilişi, internetdə, sosial şəbəkələrdə və digər açıq mənbələrdə yerləşdirilməsi, habelə həmin məlumatların media subyektlərinə və digər şəxslərə ötürülməsi qadağandır.

**"Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyinin tabeliyindəki incəsənət (musiqi, incəsənət, rəssamlıq, muğam, aşıq) məktəb və mərkəzlərinə müəllimlərin işə qəbulu və iş yerinin dəyişdirilməsi Qaydaları"na**
1 nömrəli Əlavə

| № | İxtisaslar | Keçid balları |
|---|---|---|
| **Bakı şəhəri üzrə:** | | |
| 1. | Simli alətlər (violonçel, kontrabas) | 44 |
| 2. | Klassik və milli nəfəs alətləri | 44 |
| 3. | Xoreoqrafiya | 44 |
| **Sumqayıt və Gəncə şəhərləri, Abşeron rayonu üzrə:** | | |
| 1. | Simli alətlər (violonçel, kontrabas) | 37 |
| 2. | Klassik və milli nəfəs alətləri | 37 |
| 3. | Xoreoqrafiya | 37 |
| **Digər regionlar üzrə:** | | |
| 1. | Simli alətlər (violin, viola, violonçel, kontrabas) | 30 |
| 2. | Klassik və milli nəfəs alətləri | 30 |
| 3. | Xoreoqrafiya | 30 |

| № | İxtisaslar | Keçid balları |
|---|---|---|
| **Naxçıvan Muxtar Respublikası üzrə:** | | |
| 1. | Simli alətlər (violin, violonçel) | 30 |
| 2. | Klassik və milli nəfəs alətləri | 30 |
| 3. | Xoreoqrafiya | 30 |
| 4. | Aşıq sənəti | 30 |
| 5. | Saz | 30 |
| 6. | Vokal (sahələr üzrə) | 30 |

| | | |
|---|---|---|
| 7. | Xanəndəlik | 30 |
| 8. | Rəngkarlıq (sahələr üzrə) | 30 |
| 9. | Rəssamlıq | 30 |